**Azərbaycan Dövlət İqtisad Universitenin rektoru Ədalət Muradova**

**Hörmətli cənab Ədalət Muradov,**

Bütün PAŞA Bank ailəsi adından Sizi və Sizin timsalınızda Azərbaycan İqtisad Universitetinin bütün heyətini ali təhsil ocağının 90-cı ildönümü münasibətilə təbrik edirəm.

Bu günün mütərəqqi və müvəffəqiyyətli tələbələri sabahın yalnız yüksək ixtisaslı mütəxəssisləri deyil, həm də Azərbaycanın inkişafının əsas hərəkətverici qüvvəsi olacaq.

Bu gənclərə mənəvi keyfiyyətlərin və ali dəyərlərin aşılanmasında, onlarda tərəqqi və inkişafa zəmin yaradılmasında təhsil ocaqlarının müstəsna xidməti xüsusilə vurğulanmalıdır. Odur ki, başda Siz və universitetin professor-müəllim heyəti olmaqla, hər bir əməkdaşına son dərəcə məsuliyyətli bu işdə uğurlar arzulayıram.

Məlumdur ki, korporativ sosial məsuliyyətli bir bank olaraq bizim əsas vəzifəmiz gənclərin potensialını üzə çıxarmaq, onların bir peşəkar kimi yetişməsinə şərait yaratmaq, istedadlı gəncləri dəstəkləmək, bununla da Azərbaycanın iqtisadi inkişafına töhfə verməkdir. Bu nöqteyi-nəzərdən PAŞA Bank və Azərbaycan Dövlət İqtisad Universitenin tərəfdaşlığını cəmiyyətə dəyər bəxş etmək və qarşılıqlı fayda gətirmək yönündə uğurlu bir əməkdaşlıq kimi yüksək qiymətləndirirəm.

Bir daha Sizə və universitetin bütün heyətinə ən xoş arzularımı çatdırır, fəaliyyətinizdə uğurlar diləyirəm!

***PASHA BANK rəhbəri***